# ADPU-da “Novruz mühazirələri”

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Kitabxana-İnformasiya Mərkəzində “Novruz mühazirələri” layihəsi çərçivəsində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə professor Ədalət Tahirzadənin “Azərbaycan Cümhuriyyətinin təhsil siyasəti” mövzusunda mühazirəsi dinlənilib.**




Tədbirdə giriş sözü ilə çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rektoru, professor Cəfər Cəfərov bu qəbildən olan elmi-kütləvi tədbirlərin keçirilməsinin əhəmiyyətli olduğunu deyib.

Sonra auditoriya qarşısında çıxış edən professor Ədalət Tahirzadə əvvəlcə Azərbaycan Cümhuriyyətinin yarandığı dövrdə çar Rusiyasının təhsil sahəsində apardığı ayrı-seçkilikdən danışıb. Bildirib ki, o dövrdə Azərbaycan xalqının təhsil almaqdan məhrum olunması nəticəsində ölkədə ciddi kadr çatışmazlığı yaranıb. O illərdə müsəlmanların ana dilində təhsil almaq, müəllimlər yetişdirmək, müxtəlif sahələrdə kadrlar hazırlamaq və s. hüququ yox idi.

“Azərbaycan Cümhuriyyəti tələbələri” adlı irihəcmli tədqiqat əsərində təhsil alan tələbələrin hər biri haqqında ətraflı araşdırma aparıldığını deyən professor, ümumilikdə, xaricə təhsil almağa göndərilən 102 nəfərdən 46-nın sonradan vətənə qayıtdığını, lakin onların əksəriyyətinin sovetlər dönəmində güllələndiyini vurğuladı.

Mühazirədə, həmçinin qeyd olundu ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumət tərəfindən həyata keçirilən məqsədyönlü milli təhsil siyasəti nəticəsində müəllim kadrları hazırlayan 9 kişi və 1 qadın müəllimlər seminariyası, 360-a qədər orta məktəb yaradılıb, 12 yeni dərslik tərtib olunub, Türkiyədən 50-yə qədər müəllim dəvət edilib.

Sonra müzakirələr professorlar Fikrət Rzayev və Şahlar Əsgərovun iştirakı ilə universitet tələbələrinin sualları ətrafında diskussiya şəklində davam etdirilib.

Sonda Ədalət Tahirzadə müəllifi olduğu kitablardan ADPU-nun kitabxanasına hədiyyə edib.

Qeyd edək ki, “Novruz mühazirələri” silsilə tədbirləri 2016-cı ildən Bakıda və digər bölgələrdə yerləşən ali təhsil ocaqlarında təşkil olunur. Məqsəd ictimai dinləmələr formatında Azərbaycan gəncliyinin tanınmış ziyalılarla canlı dialoq qurmalarına şərait yaratmaq, yeniyetmə və gəncləri vətənpərvərlik ruhunda tərbiyə etməkdir.

**Fidan HÜQUQQIZI,**
**“Xalq qəzeti”**

Xalq qəzeti .- 2023.- 5 mart.- S.11.